Fərman Nəbiyev
135 saylı sərəncam neçəyə başa gəlib?
Mingəçevir işıqları   No 26 (5956) 2-9 avqust 2003

***Mingəçevir İcra Hakimiyyəti sahibkarlara 60 milyon zərər vurub və bu ilin may ayından cavabdeh qismində məhkəməyə cəlb olunub. Əmlakı əllərindən çıxanların əksəriyyəti isə tərəddüd edir: «Onsuz da hakimlər ədalətli qərar çıxarmırlar…»***

Əvvəllər polisdə işləyən, son illər isə sahibkarlıqla məşğul olan İldırım Nəsirov əksər iş adamlarından fərqli olaraq inadkarlıq göstərdi. Mingəçevir şəhər İgra Hakimiyyətinin qanununa və normativ hüquqi aktlara uyğun gəlməyən sərəncamı nəticəsində fiziki şəxs kimi mülkiyyətinə vurulmuş 60 milyon manat zərərin alınmasına dair qətnamə çıxarılması haqqında 2003-cü ilin mayında 2 saylı Yerli İqtisad Məhkəməsinə iddia ərizəsi verdi.

Üç il öncə icra hakimiyyəti ilə problemi yox idi. O zaman mərkəzi bazarın ətrafında kommersiya obyektlərinin və çayxanaların tikintisi üçün torpaq sahələri «paylanırdı» və çox gəliş-gedişli yerlərdən birini də İ.Nəsirova vermişdilər (İHB-nın 12.04.2000-ci il tarixli 135 saylı sərəncamı ilə). Şəhər əhalisi etiraz edirdi: ***«Bizim gediş-gəliş yolumuzun üstündə, bir-birinə bitişik bu qədər obyektə nə ehtiyac?»*** O zaman İH-dən bildirirdilər: ***«Yolumuz azad sahibkarlıq yoludur. Biz iş adamlarına hər cür şərait yaratmalıyıq».***

Əksəriyyətə aydın idi ki, bu yerlər kiməsə «qara qaşına, qara gözünə» görə verilmir. Şəhərin baş planına görə mövcud ərazidə belə tikililərin aparılması mümkün deyil.

Bu gün İ.Nəsirov 135 saylı sərəncamı almaq üçün nə qədər pul xərclədiyini demir. Əslində o verdiyini deyərsə, qarşı tərəf götürdüyünü boynuna almayacaq. Bu iş ona oxşayır ki, fahişəliklə məşğul olana pozğunluğuna görə kimdənsə pul aldığını sübuta yetirəsən.

İ.Nəsirov elektrik şəbəkəsinin, gigiyena və epidemiologiya mərkəzinin, təbiəti mühafizə, yanğın təhlükəsizliyi, su təchizatı və suayırma idarələrinin rəsmi razılıgını və baş memarın imzası ilə təsdiqlənmiş eskizi aldıqdan sonra tikinti işlərinə başlayıb. İnşaat başa çatan kimi Mingəçevir İHB-ya müraciət edib və İH-nin müraciəti ilə Dövlət Texniki İnventarlaşdırma və Mülkiyyət Hüququnun Qeydiyyatı idarəsi 24 avqust 2001-ci ildə 72 reyestr nömrəsi ilə mövcud obyektə mülkiyyət hüququnu təsdiq edən qeydiyyat vəsiqəsi verib. Dövlət Əmlakı Nazirliyinin (İndiki İqtisadi İnkişaf Nazirliyi) əmlakın inventarlaşdırılması bürosu isə hələ 1 mart 2001-ci ildə həmin ticarət köşkü üçün texniki pasport da işləyib.

Lakin Bakıda aparılan «təmizləmə əməliyyatı»ndan sonra bölgələrdə də əl-ayağa düşüblər. «Mingəçevir şəhər İcra Hakimiyyəti başçısının ***«Mingəçevir şəhərinin memarlıq və estetik görkəminin yaxşılaşdırılması sahəsində əlavə tədbirlər haqqında» 3 oktyabr 2002-ci il tarixli 254 saylı sərəncamının icrasından irəli gələn vezifələri həyata keçirmək məqsədilə yaradılmış səlahiyyətli qərargah İ.Nəsirova məxsus ticarət obyektinə baxış keçirərək, bu obyektin həmin sərəncamın birinci bəndinə əsasən şəhərsalma və memarlıq norma və qaydalarına, normativ-hüquqi aktların və normativ texniki sənədlərin tələblərinə əməl etmədən quraşdırılmış obyekt kimi sökülməsi barədə akt tərtib etmişdir».*** Bu cümlə İHB-nın 2 saylı Yerli İqtisad Məhkəməsinə göndərildiyi etiraz dan götürülüb.

Son sözü məhkəmə deyəcək. Biz isə bəzi məqamlara diqqəti yönəltmək istəyirik. Cavabdeh tərəf bildirir ki, İ.Nəsirova başqa yer təklif olunub: ***«Ona obyektin***

***layihəsi və texniki sənədlərinin həzarlanmasında hər cür köməklik edilmiş və baş memarla razılaşdırılmış layihə əsasında tikinti aparmağa icazə verilmişdir».*** Kim zəmin ola bilər ki, sabah bu obyektin də sökülməsi barədə sərəncam imzalanmayacaq? Hələlik isə söhbət uçurulmuş obyektdən gedir. Bu, məhkəmə qərarı olmadan həyata keçirilib və sahibkara iddia etdiyinə görə, **«60 milyon manat zərər dəyib».** Vaxtilə obyektin inşasına icazə verənlər – İcra Hakimiyyətinin başçısı, baş memar, müvafiq idarələr indi səhvlərini yumalı – ziyanı ödəmilə deyillərmi? Normal hakimiyyəti olan ölkələrdə məsələyə bu qaydada nöqtə qoyulur.

Lakin Mingəçevir bazar ətrafında buldozerlərin köməyi ilə təmizlənmədən sonra yeri tikililərin aparılması barədə yenə də İH başçısının imzasıyla sərəncamlar imzalanır. Redaksiyamıza müraciət etmiş Məmməd Sariyev, Mabud İbrahimov, Qəzənfər Hümbətov və Ələddin Həmidovun məktubundan bəzi sətirləri xatırlatmağa lüzum duyuruq: ***«İcra Hakimiyyətinin ayırdığı komissiya bizim dükanları köşk adı ilə sökdürmüşdür. Ancaq bazarın qarşısındakı yöndəmsiz köşklər qalmışdır. Bundan sonra İcra Hakimiyyəti başçısı bazar ətrafında mağaza tikmək üçün 30-dan artıq yer ayırmışdır, bizi isə bazar ətrafından didərgin salmışdır…»***

Biz əlavə şərhə ehtiyac düymuruq. Bəs cavabdehlər necə?